AMEA-nın Xəbərləri (biologiya və tibb elmləri), cild 69, №2, səh. 102-106 (2014)

Naxçıvan MR Florasında Qıjıların Yeni Taksonları

T.H. Talıbov[1*], E.S. Novruzova[1], A.M. Əsgərov[2]

[1]AMEA Naxçıvan Bölməsi Bioresusrlar İnstitutu, Babək küçəsi, 10, Naxçıvan 7000, Azərbaycan;*
[2]AMEA Genetik Ehtiyatlar İnstitutu, Azdalıq prospekti,155, Bakı 1106, Azərbaycan;
E-mail: t_talibov@mail.ru;enovruzova_32@mail.ru;askerov1@mail.ru

Naxçıvan Muxtar Respublikası ərazisindən toplanılan Qıjılar - *Polypodiophyta* aid herbari materiallarının öyrənilməsi nəricəsində ərazi üçün əvvəllər qeyd edilməyən yeni iki fəsilə, 4 cins və 5 növ aşkar edilmişdir.Yeni fəsilələr - *Polypodiaceae*, *Woodsiaceae*; yeni cinslər - *Athyrium*, *Notholaena, Polypodium, Hymenocystis*; yeni növlər - *Athyrium distentifolium*, *Polystichum aculeatum*, *Notholaena marantae, Polypodium vulgare, Hymenocystis fragilis.*

Açar sözlər: *Ali bitkilər, qıjıkimilər, fəsilə, cins, növ*

2011-2013-cü illərdə Naxçıvan Muxtar Respublikasının müxtəlif rayonlarına edilən floristik ekspedisiyalar zamanı toplanılan zəngin herbari materiallarının təyini və sistematik təhlili nəticəsində Naxçıvan MR florası üçün Qıjılar (*Polypodiopsida*) üzrə yeni olan iki fəsilə, 4 cins və 5 növ aşkar edilmişdir. Bu tapıntılar təkcə Naxçıvan MR florası üçün deyil, bütövlükdə Qafqaz florasının florogenetik əlaqələrinin araşdırılmasında böyük əhəmiyyətə malikdir. Onlar tərtib olunacaq "Naxçıvan Muxtar Respublikası florası" kitabına daxil ediləcəkdir.

Qıjılar ali bitkilərin ən qədim qruplarından olub öz başlanğıcını Devon dövründən götürür (300 milyon il b.e.ə.) (Фомин,1934).

Qıjıların dünyada 300 cinsə aid 10000-dən çox növü yayılmışdır ki, onların da çoxlu növmüxtəlifliyi və həyat formaları (biomorfları) əsasən tropik ölkələrin ərazilərindədir.

Bitki örtüyündə, xüsusən meşə bitkiliyində qıjı növləri əsas fitokomponentlərdən biri sayılır. Qıjılar arasında dərman, texniki, qida, həmçinin dekorativ əhəmiyyətli növlər də çoxdur.

Son araşdırmalara görə Azərbaycanda qıjıkimilərin (*Lycopodiophyta, Equisetophyta, Polypodiophyta*) 22 fəsilə, 29 cinsə aid 63 (Əsgərov, 2005, 2011; Аскеров, Бобров,1972), Naxçıvan MR florasında isə 4 fəsilə, 7 cinsə aid 15 növünə (Talıbov, 2001) rast gəlinir. Aparılan tədqiqatlar nəticəsində Naxçıvan MR florasında yeni fəsilə, cins və növlər aşkar edilmişdir ki, onların da qısa botaniki və bioekoloji səciyyəsi aşağıda verilir. Taksonların təyin edilmiş herbari nüsxələri AMEA Naxçıvan Bölməsi Bioresurlar İnstitutunun Herbari fondunda saxlanılır.

***WOODSIACEAE* Herter – Vudsiyalar**

Fəsilə Naxçıvan MR florası üçün yenidir. Onun Azərbaycanda rast gələn 2 cinsindən biri Naxçıvan MR ərazisində tapılmışdır.

***Hymenocystis* C.A. Mey.(=*Woodsia* R. Br., p.p.) – Himenosistis, Vudsiya.**

Monotip cinsdir. Qafqazın endemik bitkisidir. Fəsilə daxilində Şərqi Asiya mənşəli digər monotip cinslə (Protowoodsia Ching) florogenetik əlaqəyə malikdir.

Hələ 1831-ci ildə Qafqaz florasının görkəmli tədqiqatçısı K.A. Meyer Vudsiya cinsi üzrə ona məlum olan növləri təhlil edərkən Qafqazın Böyük Qafqaz ərazisindən, əsasən subalp və alp qurşağı bitkilik qruplaşmalarından (2700 m d.s.h.), ən çox əhəngli dağ süxurlarından toplanan nüsxələrin bir sıra morfoloji əlamətləri ilə digər vudsiya növlərindən kəskin fərqləndiyini müəyyən etmiş və həmin növü xüsusi bir cins statusuna – *Hymenocystis* yüksəltmişdir. Sonralar "Флора СССР" (Фомин, 1934), "Флора Кавказа" və o cümlədən "Флора Азербайджана" (Гроссгейм 1939; Исаев и др., 1950) əsərlərində bu cins və ona aid olan növ Woodsia cinsinin tərkibində verilmişdir.

Sonralar A.M. Əsgərov (Аскеров, 1986, 2001) Qafqaz florası qıjıkimilərini monoqrafik tədqiq edərkən *Woodsia* cinsi növlərini makromorfoloji, anatomik, palinoloji və florogenetik üsullarla tədqiq etmiş və *Hymenocystis* cinsini bərpa etmişdir.

***Hymenocystis fragilis* (Trev.) A. Asker. [= *Woodsia fragilis* (Trev.) Moore] – Kövrək himenosistis**

Bu növ 04 iyul 2012-ci il tarixdə Şahbuz rayonuna gedilən ekspedisiya zamanı Bata-bat meşəsinin Keçəldağ istiqamətindəki ərazidən toplanılmışdır. Növ Şərq palıdı - *Quercus macranthera* Fisch. et C.A. Mey. və Avropa gərməşovu - *Euonymus europaea* L. ağaclarının yanındakı iri daşların altında *Rhinanthus vernalis* (N. Zing.) Schischk. – Yaz çınqılotu, *Alchemilla amicta* Juz. – Bükülmüş şaxduran, *Achillea millefolium* L. – Adi boymadərən, *Hypericum scabrum* L. – Kələkötür dazı, *Lathyrus pratensis* L. – Çəmən güllücəsi, *Trifolium caucasicum* Tausch – Qafqaz yoncası, *Onobrychis bungei* Boiss. – Bunge xaşası (esparseti), *Melilotus albus* Medik. – Ağ xəşənbül, *Lotus corniculatus* L. – Buynuzlu qurdotu, *Astragalus glycyphylloides* DC. – Şirinyarpaqvari gəvən

(paxladən) və bəzi taxıl növləri ilə birlikdə bitir. AMEA Naxçıvan Bölməsi Bioresurslar İnstitutunun herbari fonduna bu növ yeni daxil edilir.

Aşkar edilmiş kövrək h. növü *Woodsia* cinsi növlərindən induziumun kisəşəkilli olması, yarpağın gövdəyə birləşmə yerlərində şaxələnmələrə malik olmaması ilə seçilir. *Woodsia* növlərində - örtük sapşəkilli hissələrə bölünmüş olur, yarpaq isə "buğumludur". Bundan başqa, kövrək h. anatomik quruluşu, sporun, protalın forması ilə də asanlıqla seçilir (Аскеров, 1986). Bu növ həqiqi Qafqaz (euqafqaz) coğrafi areal tipinə aid olub, Qafqazda və o cümlədən Azərbaycanda yalnız Böyük Qafqaz regionundan məlum olmuşdur (Гроссгейм, 1939; Əsgərov, 2005, 2011; Аскеров, 2001;). Onun Naxçıvan Muxtar Respublikası ərazisindən aşkar edilən tapıntısı Cənubi Qafqazda yeganə yayılma sahəsidir. Bu tapıntı Qafqazın florogenezi üçün çox əhəmiyyətlidir və Naxçıvan Muxtar Respublikasının "Qırmızı kitabının" 2-ci nəşrinə daxil edilməlidir.

***ATHYRIACEAE* Ching - Qalxansızlar**

***Athyrium* Roth – Qalxansız**

Cins Naxçıvan MR florası üçün yenidir.

Bu cinsə aid olan *Athyrium distentifolium* Tausch ex Opiz [*A.alpestre* (Hoppe) Clairv.] – Sərilənyarpaq q.növü 10 iyun 2012-ci il tarixdə ekspedisiya zamanı Şahbuz rayonunun Biçənək meşəsinin Sərxanbiçən ərazisindən toplanılmışdır. Bitdiyi yer meşədə nisbətən qayalıqlı, torflu və rütubətli bir yer olub, *Quercus macranthera* Fisch. et C.A. Mey. - Şərq palıdı, *Acer campestre* L. – Çöl ağcaqayını, *Crataegus monogyna* Jacq. – Biryuvalı yemişan, *Lallemantia iberica* (Bieb.) Fisch. et C.A. Mey. – Gürcü lalemantiyası, *Ajuga genevensis* L. – Cenevrə dirçəyi, *Geranium sylvaticum* L. – Meşə ətirşahı, *Draba nemorosa* L. – Meşəlik yastıqotu, *Solenanthus circinnatus* Ledeb. – Qıvrım boruçiçək, *Lathyrus pratensis* L. – Çəmən güllücəsi, *Ranunculus napellifolius* DC. – Acı qaymaqçiçək, *Elytrigia heidemaniae* Tzvel.- Heydeman ayrığı, *Aegilops cylindrica* Host – Silindrvari buğdayıot, *Bromus scoparius* L.- Süpürgəvari tonqalotu və s. növlərlə birlikdə bitir. AMEA Naxçıvan Bölməsi Bioresurslar İnstitutunun herbari fonduna bu növ yeni daxil edilir.

Azərbaycanda nadir növ hesab edilir və bir neçə yayılma sahəsindən məlumdur. Ona əsasən alp və subalp qurşaqda d.s. 1500-3000 m hündürlükdə rast gəlinir. Bizim tapıntı Kiçik Qafqazda – Qoşqar – çay vadisi və Şimali Ermənistan ərazilərindən məlum olan sahələrə yaxındır (Аскеров, 2001). Naxçıvanda bu cinsin aşağı hündürlüklərdə, əsasən meşə bitkiliyi tərkibində yayılan *A. filix – femina* növünün də tapılması mümkündür.

Örtük zəif inkişaf etmiş və ya yoxdur; yarpağın seqmentləri ucdan kütdür; Kökümsovu düz; yarpaqlar uzunsov – neştərşəkilli; saplağı pərdəciklərlə örtülən; soruslar budaqlanan damarların ucuna yaxın yerləşən; 60-100 sm-dək hündürlüyündə yüksək dağ, subalp və alp qurşağı bitkisidir.

Holarktik coğrafi areal tipinə aid mezofit bitkidir. 2n=80.

***ASPIDIACEAE* Mett. ex Frank. (incl. *Dryopteridaceae* Ching) – Aspidilər**

***Dryopteris* Adans. s.str. – Ayıdöşəyi**

Naxçıvan MR-də bu cinsin bir növü məlum idi – *Dryopteris filix – mas* (L.) Schott (Əsgərov, 1981; Talıbov, 2008; Аскеров, 1977). Ərazidən cinsin daha bir növü toplanılmışdır: *D. oreades* Fomin [*D. abbreviata* (DC.) Newm. ex Monton] – Yaylaq ayıdöşəyi.

Bu növ ekspedisiya zamanı 26 may 2011-ci il tarixdə Culfa rayonun Ərəfsə kəndi yaxınlığındakı Xəzinədərə ərazisindən toplanılmışdır. Ərazi vaxtı ilə sıx meşə olmuş, lakin məlum hadisələr zamanı əhali tərəfindən nisbətən doğranılmışdır, lakin son illər demək olar ki, tam bərpa olunmuşdur. Bu növ yalnız Şərq palıdının təmiz formasiyasında *Saxifraga pontica* Albov. – Pont daşdələni, *Nepeta grandiflora* Bieb.- İriçiçək pişiknanəsi, *Achillea millefolium* L. – Adi boymadərən, *Hypericum scabrum* L. – Kələkötür dazı və *Heracleum pastinacifolium* C.Koch – Sürtükyarpaq baldırğan, *Filipendula ulmaria* (L.) Maxim. – Qaraağacyarpaq quşqonmaz, *Bupleurum polyphyllum* Ledeb. – Çoxyarpaq öküzboğan, *Geranium tuberosum* L. – Yumurulu ətirşah ilə birgə bitərək, I yarusda yerləşir. AMEA Naxçıvan Bölməsi Bioresurslar İnstitutunun herbari fonduna bu növ yeni daxil edilir.

Bu növün Qafqazda və o cümlədən Azərbaycandakı arealı, əsasən Böyük Qafqazın yüksək dağ qurşaqları, xüsusən alp və subalp bitkilikləri üçün səciyyəvidir. Kiçik Qafqazda nadir bitki sayılır, Göy – göl ətrafından məlumdur (Аскеров, 1977, 2001).

İnduziumu bozumtul, yetişəndə hissələrə bölünməyən-qövsvari; yarpaqcıqları yarımdairəvi; saplağı qısa, bozumtul pulcuqlarla örtülü; yarpaqları uzunsov-neştərvari, açıq-yaşıldır; birinci sıra seqmentləri saplaqcıqsız, aşağıdakılar uzunsov, yuxarıdakılar neştərşəkilli; sonuncu sıra seqmentləri küt, zəif dişciklidir; sorusu iridir, sıx yerləşəndir

Ümumqafqaz areal tipli, əsasən litofil, mezofit bitkidir. 2n=82.

***Polystichum* Roth – Cərgəvər**

Cinsin Azərbaycanda yayılan 9 növündən Naxçıvan MR florası üçün 1 növ məlum olmuşdur – *Polystichum lonchitis* (L.) Roth (Əsgərov, 1981; Talıbov, 2008). Naxçıvan MR - in florası, bitkiliyi və faydalı bitkiləri haqda məcmuədə Naxçıvan MR-də bu cinsin digər növünün – *P. aculeatum* (L.) Roth yayılması göstərilsə də (Əsgərov, 1981), sonralar bu region üçün göstərilməyib.

P. aculeatum (L.) Roth [*P. lobatum* (Huds.) Bast.] – Tikancıqlı cərgəvər

Bu növ 11 iyul 2012-ci il tarixdə Culfa rayonunun Əbrəqunus kəndi yaxınlığındakı Ərməmməd piri ərazisindən toplanılmışdır. Qayalıq bir vadi olan bu ərazidə *Juniperus foetidissima*Willd. - Ağıriyli ardıc,*Celtis tournefortii* Lam.– Turnefor dağdağanı, *Ulmus glabra* Huds.- Hamar qaraağac, *Amygdalus fenzliana* (Fritsch) Lipsky, *Zygophyllum fabago* L. – Adi həlməl, *Rosa canina* L.- Adi itburnu və s. ağac və kolların əmələ gətirdiyi bir biotopda qaya çatlarından toplanılmışdır. Ətrafında mamır və *Saxifraga cymbalaria* L. – Tilli daşdələn növü var idi. AMEA Naxçıvan Bölməsi Bioresurslar İnstitutunun herbari fonduna yeni daxil edilir.

Bu tapıntı həmin növün Naxçıvan MR ərazisində yayılmasını təsdiq edir və "Naxçıvan florasına" daxil ediləcəkdir.

Yarpaqları uzunsov – neştərvari, dərivari; damarları 2–3 çəngəlvari budaqlanan; sorusu damarların ortasında və ya azca yuxarıda yerləşən; induziumun kənarları dişciklidir, yarpaqları qısa saplaqlı, qaidəsinə doğru daralandır, cod dərivaridir; saplağı bozumtul pərdəciklərlə örtülüdür. İkinci sıra seqmentləri qaidəsində pazvari, iti olub saplaqcıqsızdır, iti qulaqcıqlıdır; ikinci sıra seqmentlərindən ən aşağıdakı (yuxarı cərgədə) qalanlardan iki dəfə böyükdür.

Palearktik coğrafi areal tipinə aid olub mezofil meşə bitkisidir, onun mezokserofit formalarına nisbətən quraq – meşədən kənar ərazilərdə rast gəlinir.

***SINOPTERIDACEAE* Koidz. – Sinopteridilər**

Bu fəsilədən Azərbaycanda rast gələn 2 cinsdən (*Cheilanthes* Sw., *Notholaena* R. Br.) Naxçıvan MR ərazisində *Cheilanthes* cinsi məlum olmuşdur (Аскеров, 1977, 1986, 2001; Talıbov, 2001; Askarov, 2013). Ekspedisiya zamanı digər cinsin növü də toplanılmışdır.

***Notholaena* R. Br. – Yalançıörtük**

Cins Naxçıvan MR florası üçün yenidir. Azərbaycanda məlum olan 1 növü Naxçıvan ərazisindən də toplanılmışdır.

Notholaena marantae (L.) Desv. – Marant yalançıörtük.

Bu növ 13 iyul 2011-ci il tarixdə Ordubad rayonuna gedilən ekspedisiya zamanı Gilançay və Biləv kəndi yaxınlığından toplanılmışdır. Ərazi Gilançayın qayalı daşlı sahəsində qaya altındakı nəmli yerdən toplanılmışdır. Bitkinin bitdiyi yerin yaxınlığında, yalnız *Stachyslavandulifolia* Vahl. – Lavandayarpaq poruq və *Capparis herbacea* Willd. – Otvari kəvər növləri bitmişdir. AMEA Naxçıvan Bölməsi Bioresurslar İnstitutunun herbari fonduna bu növ yeni daxil edilir.

Növün bu tapıntıya yaxın arealı Zəngilan rayonu, Şayıflı kəndi ətrafıdır (Аскеров, 2001).

Yarpaqları ikiqat lələkvari, uzunsov – neştərşəkilli, dərivari, üst tərəfdə əsasən çılpaq, yaşıl, altda isə pərdəciklərlə sıx örtüləndir; sonuncu sıra seqmenqləri uzunsov, ucdan dəyirmi, tam kənarlıdır. Üst tərəfdə çılpaq, yaşıl, alt tərəfdə isə sıx tükcüklüdür; damarlanması bir neçə dəfə çəngəlvari budaqlanandır.

Cənubi palearktik coğrafi areal tipinə aid, litofil, mezo-kserofit bitkidir, 2n=58.

***POLYPODIACEAE* Bercht. et J. Presl – Şirinkök qıjılar**

Fəsilə Naxçıvan MR florası üçün yenidir. Azərbaycanda 1 cinsi var.

***Polypodium* L. – Şirinkök**

Cins Naxçıvan florası üçün yenidir. Cinsin Azərbaycanda yayılan 2 növündən biri Naxçıvan MR ərazisində aşkar edilib.

Polypodium vulgare L. – Adi şirinkök.

Bu növ 12 iyun 2013-cü il tarixdə Ordubad rayonunun Kilit kəndi ərazisindən toplanılmışdır. Yayılma yeri Soyuq dağın ətəyindəki meşə- kolluq sahəsindəki 1046 m d.s.h. ərazini əhatə edir. N 38° 88.501'', EO 46°09.911''. Bitki qaya arasındakı sıx mamırla əhatə olunmuş vəziyyətdə bitmişdir. Ərazinin meşə - kolluq sahəsində *Betula pendula* Roth - Əyilən tozağacının üstün olduğu formasiyada əsasən *Celtis caucasica*Willd. – Qafqaz dağdağanı, *Rosa canina* L. - İt itburnu, *Jasminum fruticans* L. – Kolvari jasmin, *Cotoneaster saxatilis* Pojark. - Qaya dovşanalması, *Lonicera iberica* Bieb. - Gürcü doqquzdonu və s. kollara rast gəlinir. Adi şirinkök AMEA Naxçıvan Bölməsi Bioresurslar İnstitutunun herbari fonduna yeni daxil edilir.

Polimorf növdür, Azərbaycanda 2 yarımnövü və bir neçə növmüxtəlifliyi vardır. Naxçıvan MR ərazisindən toplanılan herbarilərin öyrənilməsi göstərir ki, onlar *P. vulgare* növünün tipik yarımnövünə aid olan – *var. attenuatum* Milde (arid meşə və kolluqlar üçün səciyyəvi olan) və Avropa – Qafqaz areallı daha kserofit, litofil *P. vulgare ssp.rotundatum* (Milde) A. Askerov yarımnövünün *var. rotundatum* Milde növ müxtəlifliyinə aiddirlər (Аскеров и др. 1972; Аскеров, 2001).

Naxçıvan MR-in Qapıcıq dağı (3906 m) ərazisindən *Botrychium lunaria* (L.) Swartz. – Yarımay salxımotu növünün tapıldığı qeyd olunmasına (Флора Армении, 1954) baxmayaraq, bizim həmin əraziyə etdiyimiz ekspedisiyalar zamanı, bu növ hələ də oradan aşkar edilməmişdir və ona görə də Naxçıvan MR taksonomik spektrinə daxil edilməmişdir (Talıbov və b., 2008).

Beləliklə, Naxçıvan MR florası üçün yeni 2 fəsilə (*Athyriaceae* Ching – Qalxansızlar,_*Polypodiaceae* Bercht. et J. Presl – Şirinkök qıjılar), 4 cins (*Athyrium* Roth – Qalxansız, *Hymenocystis* C.A.

Mey. – *Himenosistis, Notholaena* R. Br. – Yalançıörtük, *Polypodium* L. – Şirinkök) və 5 növ (*Athyrium. alpestre* (Hoppe) Clairv, *Hymenocystis fragilis* (Trev.) A. Asker. – Kövrək h., *Polystichum aculeatum* (L.) Roth – Tikancıqlı cərgəvər, *Notholaena marantae* (L.) Desv. – Marant yalançıörtük *və Polypodium vulgare* L. – Adi şirinkök) əlavə edilmişdir.

ƏDƏBIYYAT

Əsgərov A.M. (1981) Naxçıvan MR-in qıjıkimiləri və çılpaqtoxumluları. *Naxçıvan MR-in florası, bitki örtüyü və faydalı bitkiləri.* Bakı: 48-59

Əsgərov A.M. (2005) Azərbaycanın ali bitkiləri. Bakı: Elm, s. 31-51

Əsgərov A.M. (2011) Azərbaycan florasının konspekti (Əlavələr və dəyişikliklərlə 1961-2009). Bakı: Elm, 202 s.

Novruzova E.S. *(*2013) Naxçıvan Muxtar Respublikasında yayılan Ayıdöşəyikimilər – *Dryopteridaceae* R-C. Chıng fəsiləsi bitkiləri. *AMEA Naxçıvan Bölməsi Xəbərləri (Təbiət elmləri seriyası),* **№4:** 182-186

Talıbov T.H. (2001)Naxçıvan MR-in flora biomüxtəlifliyi və onun nadir növlərinin qorunması. Bakı: Elm, 192 s.

Talıbov T.H., İbrahimov Ə.Ş. (2008) Naxçıvan Muxtar Respublikası florasının taksonomik spektri. Naxçıvan: Əcəmi NPB, 364 s.

Talıbov T.H., İbrahimov Ə.Ş. (2010) Naxçıvan Muxtar Respublikasının Qırmızı kitabı (Ali sporlu, çılpaqtoxumlu və örtülütoxumlu bitkilər üzrə). Naxçıvan: Əcəmi, 677 s.

Аскеров А.М., Бобров А.Е. (1972) К систематике некоторых родов папоротников из Талыша. *Бот. ж.,* **№10:** 1296-1300

Аскеров А.М. (1977) *Pteridophyta* Азербайджана. *Бот. ж.,* **№7:** 1022-1030

Аскеров А.М. (1986) Гименоцистит – эндемичный род флоры Кавказа. *Изв. АН. Аз. ССР, сер. биол. наук* (Баку), **№3:** 52-55

Аскеров А.М. (2001) Папоротники Кавказа. Баку: Элм, 244 с.

Гроссгейм А.А. (1939) Папоротники. В *кн.: Флора Кавказа.* Изд. 2, Баку, **1:** 5-43

Исаев Я.М., Рза-заде Р.Я. (1950) Папоротникообразные. *В кн.: Флора Азербайджана.* Баку, **1:** 15-45

Конспект флоры Кавказа (2003) СПб. Унив., **Т.1:** 204 с.

Фомин А.В. (1934) Папоротниковидные. *В кн.: Флора СССР.* Л.: АН СССР, **1:** 16-100

Флора Армении (1954) Ереван: АН Арм. ССР, 290 с.

Askarov A.M. (2013) Forest ferns of the Caucasus, its' systematic and eco-geographical analysis. *International Caucasian Forestry Symposium.* Artvin-Turkey, 258-264.

Новые таксоны во Флоре Нахчыванской АР

Т.Г. Талыбов[1], Э.С. Новрузова[1], А.М. Аскеров[2]

[1] *Институт биоресурсов Нахчыванского отделения НАНА*
[2] *Институт генетических ресурсов НАНА*

В результате изучения гербарного материала по папоротникообразным растениям (*Polypodiopsida*), собранного на территории Нахчыванской Автономной Республики, выявлены 2 новые семейства, 4 рода и 5 видов, ранее не отмеченные для этого региона: новые семейства – *Polypodiacea, Woodsiaceae,*; новые роды -*Athyrium*, *Notholaena, Polypodium, Hymenocystis*; новые виды - *Athyrium distentifolium*, *Polystichum aculeatum*, *Notholaena marantae, Polypodium vulgare, Hymenocystis fragilis*

Ключевые слова: *Высшие растение, папоротникообразные, семейство, род, вид*

New Fern Taxa of Autonomus Republic of Nakhchivan

T.H. Talibov[1], E.S. Novruzova[1], A.M. Asgarov[2]

[1] İnstitute of Bioresources, Nakhchivan section of ANAS
[2] İnstitute of Genetic Resources, ANAS

During systematic review, taxonomic determination of herbarium materials collected from floristic expeditions to various regions of the Nakhchivan Autonomous Republic we found families, species which are new for to the region. New families- *Polypodiaceae, Woodsiaceae*; new genius – *Athyrium*, *Notholaena, Polypodium, Hymenocystis*; new species – *Athyrium distentifolium*, *Polystichum aculeatum*, *Notholaena marantae, Polypodium vulgare, Hymenocystis fragilis*

Kev words*: *Higher plants, ferns, families, genius, species